# Qurtuluş hərəkatının zəfər yürüşü davam edir

**Milli Qurtuluş Günü xalqımız üçün ən xoş, ən əziz, ən munis bayramlardandır: çünki ulu öndərimiz Heydər Əliyevin adı ilə, qüdrətli və möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə, ən başlıcası isə, müstəqil Azərbaycanın taleyi ilə bağlıdır. 22 il əvvəli – o çətin, mürəkkəb dövrü, ölkəmizin düşdüyü ağır vəziyyəti, vətəndaş müharibəsi təhlükəsini, Qarabağ cəbhəsindəki davamlı məğlubiyyəti, erməni təcavüzünün genişlənməsini, insanlarımızın öz doğma yurdlarını tərk edib, məşəqqətli köçkün həyatı yaşamaq məcburiyyətində qalmasını, dövlətə rəhbərlik edənlərin öz başlarını itirməsini xatırladıqca, Qurtuluş hərəkatının, onun böyük öndəri Heydər Əliyevin xilaskarlıq missiyasının miqyası göz önündə canlanır.**

İllər ötür, nəsillər dəyişir -qədirbilən xalqımız onu ağır bəlalardan qurtarmış, müstəqil dövlətimizin möhkəm bünövrəsini qoymuş, tarixi ənənələrə əsaslanan idarəetmə təsisatları və beynəlxalq standartla uyğun qanunvericilik bazası yaratmış, azərbaycançılıq ideologiyası ilə cəmiyyətə birlik və həmrəylik bəxş etmiş ulu öndər Heydər Əliyevə sevgi və minnətdarlıq duyğusunu nəsildən-nəsilə ötürür ki, Milli Qurtuluş Gününün əsl xalq bayramı kimi qeyd olunmasının ən əlamətdar xüsusiyyəti də budur...

Heydər Əliyev şəxsiyyətinə ümumxalq məhəbbətinin, tükənməz ehtiramın hardan, nədən qaynaqlandığını yaşlı nəslin nümayəndələri daha yaxşı bilirlər: şahidi və ya iştirakçısı olduqları, zaman baxımından o qədər də uzaqda olmayan tarixi hadisələr onların yaddaşında yaşayır. Məsələn, 1960-70-ci illərin gəncləri respublikanın yeni seçilmiş rəhbərinin necə böyük əzmkarlıqla sosial-iqtisadi, ictimai-mədəni həyatı canlandırdığını, qəbul etdiyi qərarlarla hər bir sahəni tərəqqi və inkişafa istiqamətləndirdiyini, milli-mənəvi dəyərləri önə çəkdiyini, milli kadr potensialı formalaşdırmaq üçün fədakarlıqlar göstərdiyini, hər bir işdə haqq-ədalətə söykəndiyini yaxşı xatırlayırlar. Keçmiş SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycan özünün ən böyük tarixi nailiyyətlərini Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-82-ci illərdə qazanmışdır. Məhz həmin illərdə müstəqil dövlət quruculuğunun istiqaməti müəyyənləşmiş, azərbaycançılığın ən parlaq səhifələri yazılmışdır. Heydər Əliyev zahirən o dövrün mövcud ideologiyasına xidmət etsə də, qəlbi və ruhu, əməli fəaliyyəti ilə milli düşüncənin sıxışdırılmasına imkan verməmiş, onun intibahına yol açmışdır.

Ulu öndərin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə möhtərəm Prezident cənab İlham Əliyev demişdir: “Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur, onun memarıdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Azərbaycan onun rəhbərliyinin hər iki dövründə çox sürətlə inkişaf edib. Birinci dəfə sovet dövründə, 1969-cu ildə rəhbər təyin olunandan sonra Azərbaycanda əsaslı dəyişikliklər baş verdi. O vaxtdan Azərbaycan onun rəhbərliyi ilə sürətlə inkişaf edərək 13 il ərzində Sovet İttifaqında ən qabaqcıl yerlərdə oldu. O vaxt Sovet İttifaqında cəmi iki respublika özünü tam təmin edirdi və ümumittifaq büdcəsinə öz töhfəsini verirdi. Onlardan biri Azərbaycan idi. Məhz o illərdə müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının inkişafı sürətlə gedirdi. Azərbaycan sovet məkanında mədəniyyət, incəsənət sahələrində öz sözünü deyirdi və respublikamızın ovaxtkı tarixi çox uğurlu idi”.

İstər 1969-82-ci illərdə respublikamıza rəhbərlik etdiyi, istərsə də 1982-1987-ci illərdə İttifaq dövlətinin rəhbərliyində ən yüksək vəzifələrdən birində çalışdığı dövrlərdə ulu öndər Heydər Əliyev özünün çoxşaxəli siyasi və idarəçilik fəaliyyətində xalqımızın mənafelərini daim hər şeydən uca tutmuş, onu qorumuş, ən başlıcası, həm azərbaycanlı olması ilə fəxr etmiş, həm də doğma vətəninə şərəf və nüfuz qazandırmışdır.

1983-1993-cü illərdə, Heydər Əliyevin Azərbaycanda olmadığı dövrdə respublikamızda vəziyyətin tədricən tənəzzülə uğramasını, dərin böhrana düşməsini də yaxşı xatırlayırıq. O tənəzzül, o böhran hətta İttifaq dövlətinin süqutu nəticəsində qazanılmış müstəqilliyi, milli dövlətçiliyin bərpası imkanlarını da az qala heçə endirəcəkdi. Çünki 1991-ci ildə formal olaraq əldə edilən müstəqilliyi tam təmin etmək üçün respublika ovaxtkı başçılarının nə siyasi iradəsi və qətiyyəti vardı, nə nüfuzu və dövlətçilik təcrübəsi... Azərbaycan müstəqil ölkə kimi yaşaya bilmir, müxtəlif təzyiqlərə məruz qalır və bunlara davam gətirə bilmirdi. Müstəqillik, sözün həqiqi mənasında, əldən gedirdi. Bu, təkzibolunmaz tarixi həqiqətdir ki, Azərbaycanda müstəqil dövlət quruculuğu məhz 1993-cü ildən – Qurtuluş hərəkatının zəfərindən sonra, ulu öndər Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə başlanmışdır və on il ərzində respublikamız yenə də postsovet məkanında ən geridə qalmış, ən problemli ölkədən ən qabaqcıl ölkəyə çevrilmişdir.

Qurtuluş hərəkatının ölkəmizin siyasi tarixindəki rolundan danışarkən yaradıcısı Heydər Əliyev olan, müasir cəmiyyətimizin avanqardı Yeni Azərbaycan Partiyasının fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Siyasi səhnəyə XX əsrin 90-cı illərin əvvəllərində mürəkkəb ictimai-siyasi şəraitdə gələn bu partiya qısa müddətdə ümumxalq inamı qazanmış, özünü milli birlik, vətəndaş həmrəyliyi əsasında ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə kimi göstərə bilmişdir. Həmin dövrdə bir qrup vətənpərvər ziyalının müraciəti ilə Heydər Əliyev yeni siyasi partiya yaratmaq və ona rəhbərlik etmək qərarına gəlmiş, Naxçıvanda partiyanın təsis konfransı keçirilmiş, beləliklə də cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxmışdır.

Möhtərəm Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının V qurultayında partiyanın ölkənin siyasi həyatındakı rolunu belə qiymətləndirmişdir: “Yeni Azərbaycan Partiyasının yaradılması, eyni zamanda, müasir siyasi sistemin yaranması deməkdir. Çünki o vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq çox primitiv səviyyədə aparmağa cəhd etmişlər. Siyasi sistem yox idi. Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin yaradılması deməkdir. Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi yaradılması, eyni zamanda, müxalifət necə fəaliyyət göstərməlidir, onu da çox açıq-aydın ortaya qoymuşdur”.

Əsas amalı dövlətçilik, müstəqillik, inkişaf, təhlükəsizlik olan Yeni Azərbaycan Partiyasının yaranmasından heç bir il keçməmiş xalqımız antimilli qüvvələrin hakimiyyətdən getməsinə nail olaraq ulu öndər Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi.

Azərbaycanın müasir müstəqillik tarixi ilə həmyaşıd olan partiyamız Heydər Əliyev ideyalarına daim sadiqdir, bu ideyaları uğurla, ardıcıllıqla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi altında öz monolit birliyini daim qoruyub saxlayır və möhkəmləndirir.

Ulu öndərin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxardı. Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətlənən ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz – bütün bunlar müasir Azərbaycanın həqiqətləridir.

Müasir Azərbaycan tarixinin ən mühüm hadisələrindən olan və ölkəmizin bugünkü firavanlığını şətrləndirən “Əsrin müqaviləsi”nin imzalanması ulu öndər Heydər Əliyevin şəxsi cəsarəti sayəsində mümkün olmuşdur. O vaxt xarici investorları Azərbaycan kimi çox riskli bir ölkəyə sərmayə qoymağa inandırmaq çox böyük siyasi təcrübə, bilik və məharət tələb edirdi. Məhz dünyanın aparıcı enerji şirkətlərinin bu müqaviləni imzalaması dünyada Azərbaycana inamı artırdı.

Bundan sonra da müstəqil dövlətçiliyimizə qənim kəsilənlər öz məkrli niyyətlərindən əl çəkmir, vəziyyəti qarışdırmağa, sabitliyi pozmağa, hətta dövlət çevrilişi etməyə cəhd göstərirdilər. Azərbaycanda silahlı çevriliş yolu ilə hakimiyyətə yiyələnmək “ənənəsi”nə məhz ulu öndər Heydər Əliyev birdəfəlik son qoydu, xalqın dəstəyi və seçimi ilə iqtidara gəlməyin və xalqa xidmət etməyin yolunu göstərdi.

Heydər Əliyev mahiyyətcə demokratik bir insan, haqqı, ədaləti hər şeydən uca tutan, müxtəlif siyasi mövqelərə daim hörmət nümayiş etdirən bir siyasətçi idi. Azərbaycan müstəqil dövlət quruculuğu istiqamətini müəyyələnşdirərkən onun seçdiyi yolun düzgünlüyünü möhtərəm Prezidentimiz cənab İlham Əliyev belə səciyyələndirmişdir: “1993-2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi. Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi. Ancaq uzun illər Kommunist Partiyasının üzvü olan, Qanlı Yanvar hadisələrindən sonra isə Kommunist Partiyasının sıralarını tərk edən bir insan kimi o, demokratiya, inkişaf, bazar iqtisadiyyatı yolunu seçmişdir. Bu, onun üçün çox ciddi bir seçim idi. Çünki o, tamamilə fərqli bir ictimai-siyasi mühitdə formalaşmışdır. Gənc yaşlarından o dövrün nümayəndəsi kimi Sovet İttifaqına, öz xalqına, Kommunist Partiyasına qulluq edirdi. Ona görə, bu, onun üçün çox ciddi bir seçim idi. Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir”.

Çox sevindirici və qürurverici haldır ki, Azərbaycan ulu öndərin müəyyənləşdirdiyi və seçdiyi yolla, onun layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi ilə inamla irəliləyir. Özü də möhtərəm Prezidentin apardığı islahatlar təkcə Azərbaycan xalqı tərəfindən deyil, dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan bu gün iqtisadi inkişaf tempinə görə dünyanın öncül ölkələri sırasındadır, bölgənin lideri kimi qlobal layihələrin təşəbbüsçüsü və icraçısı kimi böyük nüfuz sahibidir.

Bu gün bütün dünya Bakıda start götürən birinci Avropa Oyunlarından, bu mötəbər idman bayramına hazırlığın miqyasından danışır. Avropa Oyunlarının keçirilməsi üçün Bakıda tikilmiş və ya yenidən qurulmuş idman arenalarının möhtəşəmliyi və bənzərsizliyi göz qabağındadır. Bunlar xalqımızın milli sərvəti, uzun illər gənc nəsillərimizə xidmət edəcək, dünya idman aləmində ölkəmizə şərəf gətirəcək nadir və mükəmməl idman qurğuları olmaqla yanaşı, həm də müasir arxitektura nümunələridir.

Azərbaycanın, Bakının bu tədbirə ev sahibliyi etməsinin tarixi və milli mənəvi əhəmiyyəti böyükdür, Avropa Oyunlarının standartlarını biz müəyyənləşdiririk və bundan sonra harda keçirilir-keçirilsin bu Oyunların məşəli Bakıda, “Atəşgah” məbədində yandırılacaqdır.

Azərbaycanın vüsətli inkişafını gözü götürməyən, onun uğurlarından təşvişə düşən bədxahların apardıqları qaralama kampaniyası heç bir nəticə verə bilməz. Düşmənlərimizi tanıyırıq, torpaqlarımızı illərdir işğal altında saxlayan erməni təcavüzkarlar Azərbaycanın güclənməsindən qorxuya düşür, öz havadarlarını belə kampaniyalara təhrik edirlər.

Biz çətinliklər görmüş, onlara mərdliklə sinə gərmiş, ən ağır sınaqlardan çıxmış xalqıq. Heydər Əliyev ideyaları bizi sıx birləşdirmişdir, cənab İlham Əliyevin müdrik və cəsarətli addımları xalqımız tərəfindən qətiyyətlə dəstəklənir. Bu birlik, bu güc bizə daim zəfər qazandıracaqdır.

Böyük Qurtuluşun da məqsədi məhz bu idi: Azərbaycanı zəfər zirvələrinə aparmaq! Xalqımızın keçmişi, bu günü və gələcəyi ulu öndərimizin adı, onun siyasətinin davamlılığı ilə bağlıdır. Milli qurtuluş hərəkatımızın şəriksiz lideri kimi onun ideyaları daim doğma Azərbaycanımızın yolunu işıqlandıracaqdır.

**Tağı ƏHMƏDOV,**
**Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatının sədri.**